**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

# ƏMR

**23 iyun 2026-cı il** **10-1/3-1-120/2026**

## Auditor xidməti zamanı icra intizamı, müstəqillik və aidiyyəti şəxslərlə bağlı tələblərin pozulmasına yol verilməməsi barədə

Auditor xidməti göstərilməsi zamanı qanunvericiliyin, auditor fəaliyyətinə dair peşə tələblərinin, Auditorlar Palatasının qərarlarının, daxili tənzimləyici aktlarının, icra intizamı qaydalarının, müstəqillik, obyektivlik və şəffaflıq prinsiplərinin, habelə maraqların toqquşmasının qarşısının alınması üzrə öhdəliklərin tam və qeyd-şərtsiz icrası auditor peşəsinin etibarlılığı, auditor rəyinin obyektivliyi və auditə ictimai etimad baxımından mühüm əhəmiyyət kəsb edir. Auditor xidməti göstərərkən nöqsanlara və qanun pozuntularına yol verilməsi, eyni müştəriyə xidmət təklif edən və ya xidmət göstərən peşə mənsubunun, Palata üzvünün, məsul auditorun, auditor təşkilatı ilə əlaqəli şəxslərin, benefisiar mülkiyyətçilərin və ya digər aidiyyəti şəxslərin əlaqələrinin gizlədilməsi, natamam açıqlanması, gecikdirilməsi və ya təhrif edilməsi auditor fəaliyyətinin müstəqilliyinə, obyektivliyinə və peşə nüfuzuna ciddi risk yaradan hal kimi qiymətləndirilir. “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Auditorlar Palatası haqqında Əsasnaməni, Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında” Əsasnaməni və Auditorlar Palatasının daxili tənzimləyici aktlarını rəhbər tutaraq

## ƏMR EDİRƏM:

1. Bütün auditor təşkilatlarına, sərbəst auditorlara, məsul auditorlara və auditor xidməti göstərilməsində iştirak edən, Auditorlar Palatasının tənzimləmə, hesabatlılıq və nəzarət tələblərinə tabe olan şəxslərə ciddi xəbərdarlıq edilsin ki, auditor xidməti zamanı qanunvericiliyin, auditor fəaliyyətinə dair peşə tələblərinin, Auditorlar Palatasının qərar və daxili tənzimləyici aktlarının, icra intizamı qaydalarının, müstəqillik, obyektivlik, şəffaflıq və maraqların toqquşmasının qarşısının alınması üzrə tələblərin pozulmasına yol verilməsi qəti şəkildə yolverilməzdir.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/c%2BtacS3oijeIe%2FORIaVhnw4WnkpnNonfiVSpqo3UQYQ%3D

2. Xüsusi olaraq bildirilsin ki, auditor xidməti zamanı nöqsanlara və qanun pozuntularına yol verilməsi, eyni müştəriyə münasibətdə xidmət təklif edən, xidmət göstərən və ya xidmət göstərilməsi prosesində iştirak edən şəxslərin aidiyyəti şəxs olması faktının gizlədilməsi, natamam açıqlanması, gecikdirilməsi və ya təhrif edilməsi intizam məsuliyyətinə səbəb ola bilən ciddi pozuntu kimi qiymətləndiriləcəkdir.

3. Auditor təşkilatları və sərbəst auditorlar auditor xidməti göstərilməsinə başlamazdan əvvəl müştəri, benefisiar mülkiyyətçi, aidiyyəti şəxslər, maraqların toqquşması, müstəqillik, obyektivlik və peşə etikası tələbləri üzrə daxili yoxlama prosedurlarını sənədləşdirilmiş qaydada həyata keçirməlidirlər.

4. Riskli hallar müəyyən edildikdə auditor təşkilatları və sərbəst auditorlar xidmətin qəbul edilməsi, davam etdirilməsi, məhdudlaşdırılması və ya dayandırılması barədə əsaslandırılmış qərar qəbul etməli, həmin qərarı və onun əsaslarını iş sənədlərində əks etdirməlidirlər.

5. Eyni müştəriyə münasibətdə xidmət təklif edən və ya xidmət göstərən auditor təşkilatlarının, sərbəst auditorların, məsul auditorların, onların idarəetmə orqanlarında təmsil olunan şəxslərinin, benefisiar mülkiyyətçilərinin, əməkdaşlarının və auditor xidməti ilə bağlı qərar qəbuluna və ya nəticəyə təsir göstərə bilən digər əlaqəli şəxslərinin hər hansı birbaşa və ya dolayı aidiyyət əlaqəsi mövcud olduqda bu hal tam, düzgün və vaxtında açıqlanmalıdır.

6. Bildirilsin ki, aidiyyəti şəxs əlaqələrinin gizlədilməsi, məlumatların formal xarakterli təqdim edilməsi, faktiki əlaqələrin ört-basdır edilməsi, məlumatların natamam açıqlanması, gecikdirilməsi və ya təhrif olunması auditor fəaliyyətinin müstəqilliyinə və obyektivliyinə birbaşa təhlükə yaradan hal hesab ediləcəkdir.

7. Auditor xidməti zamanı yol verilmiş nöqsanların sonradan texniki səhv, diqqətsizlik, iş yükü, məlumat çatışmazlığı, daxili nəzarətin zəifliyi, əməkdaşın səhvi və ya müştərinin təqdim etdiyi məlumatlarla izah edilməsi intizam məsuliyyətini istisna edən hal kimi qəbul edilməyəcəkdir.

8. Auditin təşkili və hesabatlılıq idarəsinə tapşırılsın ki,

8.1. auditor təşkilatları və sərbəst auditorlar tərəfindən təqdim edilən məlumatların, hesabatların, auditorun şəxsi kabineti üzrə göstəricilərin və digər aidiyyəti sənədlərin təhlili əsasında icra intizamı, müstəqillik, obyektivlik, maraqların toqquşması və aidiyyəti şəxslərlə bağlı açıqlama tələblərinin pozulması ehtimalını yaradan halları ümumiləşdirsin;

8.2. bu əmrin 8-ci hissəsində göstərilən hallar aşkar edildikdə həmin hallar üzrə ilkin məlumatları, risk göstəricilərini və əsaslandırıcı sənədləri əks etdirən təqdimat hazırlayaraq Xüsusi Auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, Daxili Nəzarət və Forenzik Təhlillər İdarəsinə təqdim etsin.

9. Xüsusi Auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, Daxili Nəzarət və Forenzik Təhlillər İdarəsinə tapşırılsın ki:

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/c%2BtacS3oijeIe%2FORIaVhnw4WnkpnNonfiVSpqo3UQYQ%3D

9.1. Auditin təşkili və hesabatlılıq idarəsinin təqdimatı əsasında pozuntu ehtimalı olan halları araşdırsın, zəruri sənəd və izahatların alınmasını təmin etsin, faktları qiymətləndirsin və nəticələr üzrə əsaslandırılmış arayış və təkliflər hazırlasın;

9.2. gələcəkdə aparılacaq nəzarət, monitorinq və qiymətləndirmə tədbirləri zamanı icra intizamı, müstəqillik, obyektivlik, maraqların toqquşması və aidiyyəti şəxslərlə bağlı açıqlama tələblərinə riayət olunması vəziyyətini xüsusi nəzarətdə saxlasın.

10. Gələcəkdə aparılacaq monitorinq, nəzarət və qiymətləndirmə tədbirləri zamanı bu əmrdə göstərilən hallar aşkar edildikdə pozuntunun xarakteri, ağırlıq dərəcəsi, təkrar olub-olmaması, yaratdığı nəticələr, peşə nüfuzuna və auditə ictimai etimada təsiri nəzərə alınmaqla qanunvericilikdə və Auditorlar Palatasının daxili tənzimləyici aktlarında müəyyən edilmiş qaydada intizam məsuliyyəti tədbirlərinin tətbiqi məsələsinə baxılması təmin edilsin.

11. Bildirilsin ki, bu əmrlə edilən ümumi xəbərdarlıq gələcəkdə analoji pozuntu aşkar edildikdə pozuntuya yol vermiş şəxslər barəsində yalnız xəbərdarlıq tədbiri ilə kifayətlənilməsi üçün əsas yaratmır.

12. Auditor təşkilatları və sərbəst auditorlar bu əmrdən irəli gələn tələbləri daxili nəzarət, müstəqillik, maraqların toqquşması və müştərinin qəbul edilməsi prosedurlarında nəzərə almalı, bu istiqamətdə sənədləşdirmənin tamlığını və izlənilə bilənliyini təmin etməlidirlər.

13. Daxili nəzarət və komplayens şöbəsinə tapşırılsın ki, üç gün müddətində bu əmrin mətninin auditor təşkilatlarına, sərbəst auditorlara və Auditorlar Palatasının aidiyyəti struktur bölmələrinə göndərilməsini təmin etsin.

14. Bu əmrin mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

15. Bu əmrin icrasına ümumi nəzarət Auditorlar Palatasının icraçı direktoru S.Gülməmmədova həvalə edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/c%2BtacS3oijeIe%2FORIaVhnw4WnkpnNonfiVSpqo3UQYQ%3D